# *Dəmir ÇEŞMƏLİ - 75*



Hörmətli Dəmir müəllim!

Sizi - istedadlı şairi 75 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1950-ci ildə Tovuz rayonunun Çeşməli sovetliyinin Həsənli kəndində kolxozçu ailəsində dünyaya gəlmisiniz. 1968-ci ildə Çeşməli kənd orta məktəbini bitirmiş, 1973-1978-ci illərdə Azərbaycan İqtisad Universitetində təhsil almısınız. Daxili İşlər orqanlarında müxtəlif vəzifələrdə xidmət etmisiniz. 2002-ci ildə Təfəkkür Universitetinin hüquq fakültəsini bitirmisiniz. 2004-2017-ci illərdə Bakı Qida Sənayesi Kollecində hüquqşünaslıq ixtisası üzrə müəllim kimi fəaliyyət göstərmisiniz.

1992-ci ildə "Atama məktub" şeiriniz Azərbaycanın Xalq şairi Nəbi Xəzrinin təqdimatında "Novruz" qəzetində dərc edilib. 1998-ci ildə "Yola sal məni" adlı ilk şeirlər kitabınız çapdan çıxıb. 2010-cu ildə "Hələki yaz ümidim var", 2012-ci ildə "Araz axır, Kür baxır", 2016-cı ildə "Söz sevgilimdir", 2021-ci ildə "Söz vaxtı gəldim" şeirlər kitablarınız nəşr olunub.

Hörmətli Dəmir!

Sizi bir daha 75 illik yubileyiniz münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**